*Prezident İlham Əliyev:*

# Cənubi Qafqaz regionunda vəziyyət sülhə doğru inkişaf edir



***Ermənistan İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətə uğrayandan və noyabrın 10-da kapitulyasiya aktına imza atandan sonra regionda yeni reallıq yaranmış oldu. Vətən müharibəsini şanlı qələbə ilə başa vurmuş, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsini həyata keçirərək özünün ərazi bütövlüyünü təmin etmiş Azərbaycan öz siyasətini ardıcıllıqla aparır və son nəticədə Ermənistanla sülh müqaviləsi imzalamaqda israrlıdır.***

Bunun üçün rəsmi Bakı 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanata, eləcə də Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 11 yanvar 2021-ci il razılaşmasına əsaslanır. Bu sənədlərlə hər iki ölkə üzərinə öhdəliklər götürüb və onları yerinə yetirməyə borcludur. Öhdəliklər sırasında kommunikasiyaların açılması da var və Ermənistanın baş naziri etiraf edib ki, bu istiqamətdə konkret nəticəyə gəlinməlidir: "Hesab edirəm ki, 30 illik blokadadan qurtulmaq üçün ciddi imkanlar mövcuddur. Düzdür, bu elə də asan məsələ deyil, amma mümkündür".

Paşinyan deyib ki, 10 noyabr və 11 yanvar razılaşmalarına əsasən, Ermənistan Azərbaycan üzərindən Rusiya və İranla, Azərbaycan da, öz növbəsində, Naxçıvanla kommunikasiya və nəqliyyat əlaqələri qurmaq imkanı əldə etməlidir. Əslində, kommunikasiyaların açılması zaman-zaman gündəmə gəlib: "Əgər məqsədə nail olmaq istəyiriksə, Ermənistanı qarşılıqlı əsasda bölgə üçün əlverişli mühitə çevirməliyik".

Bütün bunlar isə, təbii ki, iki ölkə arasında qarşılıqlı anlaşmaya gəlinməsini, sülh müqaviləsinin imzalanmasını zərurətə çevirir. Bu istiqamətində Azərbaycan da, Rusiya tərəfi də, hətta Avropa İttifaqı da ardıcıl səylərini davam etdirir. Avqustun 31-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Belçika Krallığının paytaxtı Brüsseldə Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti, sayca dördüncü görüş keçirilib. Şübhəsiz ki, bu görüş də Cənubi Qafqazda daimi sülhün və əməkdaşlığın təmin olunması istiqamətində atılan mühüm addımdır. Hər bir görüşü qarşıya qoyulan hədəfə doğru istiqamətlənmiş addım kimi dəyərləndirməliyik. Regionda yeni reallıqların müəllifi olan Prezident İlham Əliyev postmünaqişə mərhələsinin ümumi geosiyasi mühitinin formalaşmasında əsas söz sahibidir. Bu səbəbdən də, Brüssel görüşündə Azərbaycanın şərtləri gündəmdə olub. Ermənistanın müqavimətinə və Brüssel görüşündə real nəticələrin əldə olunmasına maneçilik törətmək cəhdlərinə baxmayaraq, Prezident İlham Əliyev konkret nəticələrin razılaşdırılmasına nail olub.

Bir müddət əvvəl Azərbaycan və Ermənistanın Xarici İşlər nazirliklərinin xətti ilə sülh sazişinin mətni üzərində işə başlamaq üçün qruplar yaratmaq barədə də razılıq əldə olunub. Hazırda regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmini, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün sülh müqaviləsinin imzalanması ən vacib məsələdirr. Artıq bu istiqamətdə konkret addımlar atmağın vaxtı çatıb. Azərbaycan artıq iki ilə yaxındır ki, Ermənistana düşünüb-daşınmaq üçün imkan verib. Amma Ermənistan indiyə qədər bu prosesdən yayınmağa çalışıb. Brüssel görüşü nəticəsində də məlum oldu ki, sülh müqaviləsi Bakının irəli sürdüyü və İrəvanın qəbul etdiyi məlum beş prinsip əsasında hazırlanmalıdır.

Brüssel görüşündə, təbii ki, humanitar məsələlər, minalaрın təmizlənməsi, itkin düşmüş şəxslərin taleyi, sərhədlərin demarkasiyası və delimitasiyası məsələləri də diqqət mərkəzində olub. Kommunikasiyaların açılması da Brüssel görüşünün gündəliyində geniş müzakirə olunan məsələlərdən olub. Sevindirici hal budur ki, Avropa İttifaqı da Rusiya kimi, Azərbaycanın müəyyənləşdirdiyi gündəliyi və reallıqları qəbul edir. Çünki Azərbaycan Prezidentinin mövqeyi ədalətə və beynəlxalq hüquqa əsaslanır. Demək olar ki, bütün beynəlxalq təşkilatların, eləcə də Aİ-nin qəbul etdiyi sənədlərdə ərazi bütövlüyümüz daim dəstəklənib, Azərbaycanın haqlı mövqeyi müdafiə olunub. Şarl Mişel də Brüsseldə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri ilə üçtərəfli görüşün yekunlarına dair mətbuata bəyanatında bildirib ki, uzunmüddətli, davamlı sülh istiqamətində öz dəstəyini bundan sonra da göstərməyə hazırdır. O, hər iki ölkənin əhalisini sülhə hazırlamağın vacibliyini bəyan edib. Eyni zamanda, deyib ki, son görüşdə əldə olunmuş razılaşmalar istiqamətində bəzi addımların atıldığını görmək sevindirici haldır. Cənab Mişel əlavə edib ki, təmsil etdiyi qurum hər iki ölkənin və onların xalqlarının rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə davam edəcək.

Regionda sülh yaradılması barədə Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 2-də İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində də məlumat verib. Onun sözlərinə görə, Cənubi Qafqaz regionunda vəziyyət sülhə doğru inkişaf edir. Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri ilə üçtərəfli görüşdə razılığa gəlinib ki, bir ay müddətində Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh sazişi ilə bağlı praktiki danışıqlara başlamaq məqsədilə görüşəcəklər: "Bu, bizim İkinci Qarabağ müharibəsinin bitməsindən, demək olar ki, dərhal sonra irəli sürdüyümüz təklif idi. Biz bildirdik ki, bizim sülhə, sülh sazişinə ehtiyacımız var. Bununla razılaşmaq üçün Ermənistana təqribən iki il lazım oldu. Zənnimcə, bu, görüşün ən mühüm nəticələrindən idi. Əlbəttə, bu sülh danışıqlarının gedişatından çox şey asılı olacaq. Zaman çərçivəsi və məzmun nədən ibarət olacaq. Hesab edirəm ki, biz bir neçə ay ərzində sülh sazişini yekunlaşdırıb imzalaya bilərik. Ermənistan tərəfi eyni iradə nümayiş etdirsə, zənnimcə, bu, realdır. Biz sülh sazişinin üzərində qurulmalı olduğu beş baza prinsipini irəli sürdük və Ermənistan bunu qəbul edib".

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan, Ermənistan və digər qonşularımızı birləşdirən infrastrukturun yaradılması məsələsi də müharibənin bitməsindən sonra imzalanmış Üçtərəfli Bəyanatda öz əksini tapıb. Azərbaycan azad olunmuş ərazilərdə artıq irimiqyaslı infrastruktur layihələrinin icrasına başlayıb. Artıq Füzulidə inşa edilmiş birinci beynəlxalq hava limanı istifadəyə verilib. İkinci beynəlxalq hava limanının uçuş, enmə zolağı artıq fəaliyyət göstərir və tezliklə bu hava limanının da açılışı olacaq: "Biz elektrik stansiyaları tikmişik və elektrik xətləri çəkmişik. Avtomobil yolları, tunellər, körpülər və dəmir yolları inşa edirik. Bütün işlər gedir və biz bu işləri yalnız qonşular ilə bağlılığı təmin etmək və daxili istifadə üçün görmürük. Bu səylər həmçinin Ermənistan vasitəsilə Azərbaycanı özünün Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin icrasına yönəldilib".

Aradan iki ilə yaxın vaxt keçsə də, artıq sülh prosesinin start götürdüyünü söyləmək olar. Ermənistan da bunda maraqlı olduğunu bəyan edir. Baş nazir Nikol Paşinyan parlamentdəki çıxışlarından birində bu barədə danışaraq rəsmi şəkildə bəyan edib ki, İrəvan Azərbaycanla konstruktiv danışıqlara hazırdır. Ancaq uzun zaman o, bunu ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində görmək istəyirdi. Məhz bu çərçivədə danışıqlar prosesinin bərpasına çalışırdı. Paşinyan deyib: "Ermənistan Azərbaycanla sülh danışıqlarını bərpa etmək üçün təkliflər gözləyir. Sərhədlərin demarkasiyası və delimitasiyası üzrə işlərin intensivləşdirilməsi vacibdir. Təəssüf edirəm ki, siyasi səs-küy səbəbi ilə yazda planlaşdırılan nəticəni əldə etmək mümkün olmadı. Ermənistan–Azərbaycan sərhədinin bir sıra hissələrində qeyri-sabit vəziyyət proseslərin başlanmasına ciddi təhlükədir".

Nəhayət ki, uzun çək–çevirdən sonra Ermənistan da Minsk qrupunun öz dövrünü başa vurması faktı ilə barışmalı olub. Azərbaycan bu formatın işləkliyini birmənalı şəkildə rədd edir. Ona görə də Brüssel danışıqlarında Minsk qrupunun adı belə çəkilməyib. Sülh prosesi ilə bağlı addımlar isə davam edir. Prezidentlərin Brüssel görüşündən sonra Moskvada Ermənistan və Rusiya xarici işlər nazirləri Ararat Mirzoyan və Sergey Lavrov arasında təmas baş tutub. Görüşdə regional təhlükəsizlik və sabitliyin geniş spektri müzakirə edilib. Ermənistan və Azərbaycan tərəfindən sərhədlərin demarkasiyası və sərhəd təhlükəsizliyi, regionda iqtisadi və nəqliyyat infrastrukturlarının blokadadan çıxarılması istiqamətində görülən işlər ətrafında fikir mübadiləsi aparılıb.

Sülh prosesi ilə bağlı Prezident İlham Əliyevin mövqeyi qətidir. O, "CNN-Türk"ə müsahibəsində bu barədə açıq danışıb. Onun sözlərinə görə, rəsmi Bakı istəyir ki, Ermənistanla sülh müqaviləsi imzalansın. Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü tanısınlar və sərhədlərin delimitasiyası və demarkasiyası prosesi başlansın: "Əgər Ermənistan buna hazırdırsa, əgər Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü tanımağa hazırdırsa, onda, əlbəttə ki, bölgəyə uzunmüddətli sülh gələcək. Biz bunu istəyirik və eyni zamanda, buna nail olmaq üçün indi konkret təkliflər də masa üzərindədir. Yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yeni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir. Hesab edirəm ki, Ermənistanın da maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni fürsətlər ortaya çıxacaq".

Prezident İlham Əliyev Azərbaycanın sülh istiqamətində ardıcıl səylər göstərməsi ilə yanaşı, öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına və maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm verdiyini də bildirib. Bu barədə o, Dördüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına müraciətində bəyan edib: "Ölkəmiz hərbi-texniki sahədə dünyanın qabaqcıl dövlətləri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, milli müdafiə sənayesi sahəsində də imkanlarını genişləndirir. Hazırda Azərbaycan aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın 50-dən çox ölkəsinin aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir, ölkəmizin müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır".

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***